


**Yaranma tarixi – 26.11.1991**
**Ərazisi –1458 kм²**
**Əhalinin sayı – 43365 nəfər**
**O cümlədən:**
**Azərbaycanlı əhalisi 12318 nəfər**
***(01 iyul 2017-ci il tarixə)***
**Əhalinin sıxlığı -1 kv.km 29 nəfər**
***(01 iyul 2017-ci il tarixə)***

## 2017-ci ilin yanvar-iyun aylarında Xocavənd Rayonunda sosial iqtisadi inkişafa dair təhlil

**Sənaye** müəssisələri tərəfindən 2017-ci ilin birinci yarısında Xocavənd rayonununda istehsal olunmuş məhsulun (işin, idmətin) həcmi faktiki qiymətlərlə 144,0 min manat olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 17,9% azalma müşahidə edilmişdir. Sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 88 nəfər təşkil etmiş, işləyənlərin orta aylıq nominal əmək haqqı 206,2 manat təşkil etmişdir.
Sənayenin məhsul buraxılışı diaqrammada keçən illərin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Sənaye xarakterli iş və xidmətləri**
**(min manatla)**




**Nəqliyyat və anbar təsərrüfatları üzrə** göstərilmiş və istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 16,9 min manat olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 18,1% artım müşahidə edilmişdir. Nəqliyyat və anbar təsərrüfatları üzrə muzdla işləyənlərin sayı 8 nəfər, onların orta aylıq nominal əmək haqqı isə 248,5 manat təşkil etmişdir.

**Kənd təsərrüfatı** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Kollegiyasının 2016-cı il 28 dekabr tarixli, 11/2 nömrəli qərarı ilə təsdiq edilmiş "2017-ci ildə yerli statistika orqanları üçün statistik işlər proqramı"na uyğun olaraq Xocavənd rayonunda 2017-ci il iyun ayının 1-i vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə cari ilin məhsulu üçünkənd təsərrüfatı bitkilərinin əkin sahələrinin qəti uçotu keçirilmişdir.

Keçən ilin payızında suvarılan və suvarılmayan sahələrdə dən və yaşıl yem üçün əkin işləri aparılmışdır. Cari ilin məhsulu üçün rayonda 6335,2 hektar sahədə əkin işləri aparılmışdır.

Əkin sahələri keçən ilə nisbətən 332.7 hektar və ya 5% azalmışdır. Azalmanın əsas səbəbi isə torpaqların dincə qoyulması olmuşdur. Cari ilin məhsulu üçün əkinlərin 100%-i ailə kəndli və ev təsərrüfatlarında aparılmışdır.

2017-ci il 01 iyun vəziyyətinə rayon ərazisində aparılmış əkin sahəsini 5500 hektar buğda, 127 hektar arpa, 26 hektar kartof, 139 hektar tərəvəz, 29.2 hektar ərzaq üçün bostan bitkiləri, 30 hektar qarğıdalı, 394 hektar cari və keçmiş illərdə əkilmiş çoxillik otlar olan yonca sahəsi təşkil edir.

Keçən illə müqayisədə əkin sahələrinin strukturu aşağıdakı kimi olmuşdur.

| | | 2016 | 2017 | Fərq | |
|---|---|---|---|---|---|
| | | | | + - | % |
| **1** | **Cəmi əkin** | **6667,9** | **6245,2** | **-422,7** | **93,7** |
| | O cümlədən payızlıq dənlilər | 6132,4 | 5627 | -505,4 | 91,8 |
| | Ondan Buğda | 5883,9 | 5500 | -383,9 | 93,5 |
| | Arpa | 248,5 | 127 | -121,5 | 51,1 |
| **2** | **Yazlıq dənlilərin cəmi** | **1,2** | **30** | **+28,8** | **2500** |
| | Qarğıdalı | 1,2 | 30 | +28,8 | 2500 |
| **3** | **Texniki bitkilərin cəmi** | **0** | **0** | **0** | **0** |
| | Pambıq | 0 | 0 | 0 | 0 |
| **4** | **Kartof tərəvəz və bostan bitkilərinin cəmi** | **133,6** | **194,2** | **+60,6** | **145.3** |
| | Kartof | 17 | 26 | +9 | 152,9 |
| | Tərəvəz | 86,6 | 139 | +52,4 | 160,5 |
| | Bostan bitkiləri | 30 | 29,2 | -0,8 | 97,3 |
| **5** | **Çox illik otların cəmi** | **400,7** | **394** | **-6.7** | **98,3** |
| | Cari ilin çoxillik otları | 4,7 | 4,4 | -0.3 | 93,6 |
| | Keçmiş illərin çoxillik otları | 396 | 389,6 | -6,4 | 98,4 |

Əkin sahələrinin strukturu ümumi əkin sahəsinə nisbətən faizlə aşağıdakı diaqrammada öz əksini tapmışdır.




Rayonda 2017-ci ilin məhsulu üçün əkin sahələrinin 88,1% buğda, 2,0% arpa, 0.4% kartof, 2,2% tərəvəz, 0.5%-i bostan bitkiləri, 0,5% qarğıdalı, 6,3%-i çoxillik otlar olan yonca sahəsi təşkil etmişdir.

2017-ci ilin 01 iyul vəziyyətinə hesabat dövründə fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında məhsul yığımı aşağıdakı kimi olmuşdur.

| Göstəricinin adı | Ölçü vahidi | |
|---|---|---|
| | Hektar | Sentner |
| Payızlıq və yazlıq dənlilər | 6132,4 | 110636 |
| ondan Buğda | 5500 | 108350 |
| Arpa | 127 | 2286 |
| Kartof | 26 | 2990,0 |
| Tərəvəz | 13,0 | 975,0 |
| Meyvə | 8 (adda) | 1678,0 |

Taxılın məhsuldarlığı 19,7 sentner, o cümlədən buğda 19,7 sentner, arpa isə 18,0 sentnerden, kartof 115 sentner, tərəvəzin məhsuldarlığı isə 75 sentnerdən və 167.8 ton meyvə əldə edilmişdir. Hazırda rayon əhalisi tərəfindən həyətyani sahələrdə məhsul yığımı işləri davam etdirilir. Rayonda hal-hazırda mövcud mal-qaranın sayı 2340 baş, o cümlədən inək və camışların sayı 1178 baş, qoyun və keçinin sayı 21009 baş, bütün növdən olan quşların sayı 29846 baş təşkil edir. Keçən ilin müvafiq dövrü ilə müqaisəli olaraq mal-qaranın baş sayının artım və azalma dinamikası aşağıdakı kimi olmuşdur.

| | 2016 | 2017 | + - | % |
|---|---|---|---|---|
| İri buynuzlu mal-qara | 2068 | 2340 | +272 | 113,1 |
| İnəklər və camışlar | 1084 | 1178 | +94 | 108,7 |
| Qoyunlar və keçilər | 15370 | 21009 | +5639 | 136,7 |

Heyvandarlıq məhsullarının istehsalına gəldikdə isə ət diri çəkidə 470 ton, ondan inək əti 189 ton, qoyun əti 210 ton, quş əti 71 ton, süd 1350 ton, ondan inək südü 1301 ton, qoyun südü 48.1 ton, yumurta 172 min ədəd, yun 23,5 ton istehsal edilmişdir.

| | istehsal edilmişdir | | + - | % |
|---|---|---|---|---|
| | 2016 | 2017 | | |
| Ət diri çəkidə (sentnerlə) | 2713 | 4700 | +1889 | 173,2 |
| Süd (sentnerlə) | 10676 | 13500 | +2824 | 126,4 |
| Yumurta (min ədədlə) | 167 | 172 | +5 | 102,9 |
| Yun (sentnerlə) | 495 | 235 | -260 | 47,5 |

**Demoqrafik göstəricilər** 2017-ci il 01 iyul vəziyyətinə rayon əhalisinin sayı 43396 nəfərə çatmışdır ki, onlardan da 12318 nəfərini milliyətcə azərbaycanlı olan məcburi köçkün əhali təşkil edir. Əhalinin ümumi artımı 35 nəfər olmuşdur. Cari ilin II yarısında doğulanlar 65 nəfər, ölənlər 27 nəfər, gələnlər 92 nəfər, gedənlər 95 nəfər, nikah 15 , boşanma 1 olmuşdur. Əvvəlki illərin müvafiq dövrləri ilə müqayisəli olaraq demoqrafik göstəriciləri aşağıdakı kimidir.

**Əhalinin dinamikası (min nəfərlə)**



**Ümumtəhsil** məktəblərdə 2015/2016 tədris ilində rayonda 17 dövlət gündüz ümumtəhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan da 4 ibtidai, 2 ümumi orta, 11 tam orta məktəb olmuşdur. Ümumtəhsil məktəblərində 2052 nəfər şagird təhsil alır ki, onların da 36 nəfəri (1,8%) ibtidai məktəblərin, 43 nəfəri (2,1%) ümumi orta məktəblərin, 1973 nəfər (96,1%) şagird tam orta məktəblərin payına düşür. İkinci növbədə oxuyanların sayı 269 şagird olmuşdur. Təhsil alan şagirdlərin 1140 nəfərini və ya 55,5%-i qızlar təşkil edir. Şagirdlərin ümumi sayından evdə fərdi təhsil alanların sayı 24 nəfər (1,2%) olmuşdur. Şagirdlərin buraxdığı dərs günlərin sayı 484 nəfər; o cümlədən 134 nəfər xəstəliyə görə, digər səbəblərə görə isə 350 nəfər qeydə alınmışdır.

Ümumtəhsil məktəblərində 603 nəfər çalışır və onların da 421 nəfərini və ya 69,8%-ni qadınlar təşkil edir. Müəllimlərin sayı 310 nəfər, onların da 251 nəfəri və ya 80,9%-i qadınlardır. Rayonun ümumtəhsil məktəblərində çalışan işçilərin orta aylıq əmək haqqı 293,0 manat təşkil edir.

| | *2015/2016* | | | | *2016/2017* | | |
|---|---|---|---|---|---|---|---|
| | | *onlardan* | | | | *onlardan* | |
| | *Cəmi* | *Şəhər* | *Kənd* | | *Cəmi* | *Şəhər* | *Kənd* |
| Məktəblərin sayı – cəmi | 17 | -- | 17 | | 17 | -- | 17 |
| ibtidai | 4 | -- | 4 | | 4 | -- | 4 |
| əsas | 2 | -- | 2 | | 2 | -- | 2 |
| orta | 11 | -- | 11 | | 11 | -- | 11 |
| Şagirdlərin sayı – cəmi, nəfər | 1927 | -- | 1927 | | 2052 | -- | 2052 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai məktəblərdə | 38 | -- | 37 | | 36 | -- | 36 |
| ümumi orta məktəblərdə | 53 | -- | 53 | | 43 | -- | 43 |
| tam orta məktəblərdə | 1836 | -- | 1836 | | 1973 | -- | 1973 |
| Iki növbəli müəssisələrin sayı | -- | -- | -- | | 2 | -- | 2 |
| Ikinci növbədə oxuyan şagirdlərin sayı | 326 | -- | 326 | | 269 | -- | 269 |
| Şagirdlərin ümumi sayından evdə fərdi təhsil alanların sayı | 19 | -- | 19 | | 24 | -- | 24 |

Ümumtəhsil müəssisələrində İKT və onlardan istifadə edilməsi haqqında məlumat aşağıdakı kimi olmuşdur.

| | Cəmi | Ibtidai Məktələrdə | Ümumi orta məktəblərdə | Tam orta məktəblərdə |
|---|---|---|---|---|
| Kompüterləri olan məktəblərin sayı: | 12 | - | 1 | 11 |
| Cəmi | 12 | - | 1 | 11 |
| Onlardan İnternetə çıxışı olanlar | 3 | - | - | 3 |
| Kompüterlərin sayı | 47 | - | 1 | 46 |
| İnternetə qoşulan kompüterlərin sayı | 29 | - | - | 29 |
| Müəssisələrdə internetdən istifadə etmiş şagirdlərin ümumi sayı | 605 | - | - | 605 |
| Kompüter siniflərinin sayı | 3 | - | - | 3 |

**Mədəniyyət və Turizm sahəsi üzrə** rayon əhalisinə 15 klub və mədəniyyət evləri, 5 kitabxana xidmət göstərir. Mədəniyyət və Turizim sahəsində 149 nəfər çalışır və onların da 103 nəfərini və ya 69,1%-ni qadınlar təşkil edir. İşçilərin orta aylıq əmək haqqı 203,4 manat təşkil etmişdir.

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 01.07 2017 |
|---|---|---|---|---|---|---|
| Mədəniyyət (ilin sonuna) Kütləvi kitabxanaların sayı, | 20 | 19 | 13 | 6 | 6 | 6 |
| Onlardan kitab fondu ,min nüsxə ilə | 39.9 | 40,2 | 41,3 | 42.0 | 42.5 | 42.5 |
| Əhalinin hər 1000 nəfərinə | 945 | 948 | 969 | 979 | 985 | 985 |
| Klub müəssisələrinin sayı | 20 | 20 | 20 | 15 | 15 | 15 |

**Səhiyyə sahəsi üzrə** rayon Mərkəzi xəstəxanasında ümumilikdə 280 nəfər çalışır və onların da 230 nəfərini və ya 82,1%-ni qadınlar təşkil edir. Xəstəxanada 27 həkim, xəstələrə xidmət edən kiçik tibb bacıları 144 nəfər, orta tibbi heyəti 100 nəfər, feldşer və laborantlar 9 nəfər işçi heyəti çalışır. Onların orta aylıq əmək haqqı 196,3 manat təşkil edir.

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 01.07.2017 |
|---|---|---|---|---|---|---|
| Həkimlərin sayı, nəfərlə | 34 | 31 | 31 | 30 | 29 | 27 |
| Xəstələrə xidmət edən kiçik tibb bacıları | 121 | 136 | 103 | 136 | 146 | 114 |
| Orta tibb heyəti | 125 | 103 | 145 | 103 | 100 | 100 |
| Təcili yardım avtomobillərinin sürücüləri | 8 | 8 | 8 | 8 | 8 | 9 |
| Xəstəxanaların sayı | 4 | 4 | 4 | 4 | 4 | 4 |
| Xəstəxana çarpayılarının sayı | 180 | 180 | 180 | 180 | 180 | 180 |
| Əhaliyə ambulator - poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 7 | 7 | 7 | 7 | 7 | 7 |

**Pensiya təminatı üzrə r**ayonda 1141 nəfər pensiyaçı qeydiyyatda olmuş və onlara təyin edilmiş aylıq pensiyaların orta məbləği 184,2 manat təşkil etmişdir. Pensiyaçıların sayından 103 nəfər işləyənlərdir.

| | Cəmi | Onlardan işləyənlər |
|---|---|---|
| Cəmi pensiyaçılar - nəfər | 1141 | 103 |
| O cümlədən | | |
| yaşa görə | 584 | 53 |
| əlilliyə görə | 525 | 50 |
| Ailə başçısını itirməyə görə | 32 | - |
| Pensiyaların orta məbləği - manat | - | 184,2 |

| | |
|---|---|
| Əhaliyə dövlət tərəfindən verilən ayrı ayrı müavinətlər | 1 |
| Uşağın anadan olmasına görə birdəfəlik müavinət | 2 |
| 3 yaşına çatmayan uşaqlara qulluqla əlaqədarmüavinət | 12 |
| Dəfin üçün müavinət | 7 |
| Müavinətin orta məbləği | 247,0 |

2017-ci ilin II yarısında rayonda aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 75 o cümlədən ailə üzvlərinin sayı 319 nəfər olmaqla, bir nəfərə düşən orta aylıq

müavinətin məbləği 37,0 manat olmuşdur. Ünvanlı dövlət sosial yardımı alan ailə üzvlərinin sayından 138 nəfərini qadınlar, 195 nəfərini isə 18 yaşınadək uşaqlar təşkil edir.

| Göstəricinin adı | Ailələrin sayı | Ailə üzvlərinin sayı, nəfər | | | Ailənin orta ölçüsü, (nəfər) | Təyin olunmuş ünvanlı dövlət sosial yardımının ümumi məbləği (manat) | 1 nəfərə düşən ünvanlı dövlət sosial yardımın məbləği (manat) |
|---|---|---|---|---|---|---|---|
| | | o cümlədən: ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailə üzvlərinin sayı | onlardan: | | | | |
| | | | qadınlar | 18 yaşınadək uşaqlar | | | |
| **A** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| Ünvanlı dövlət sosial yardımı | 75 | 319 | 138 | 195 | 4,2 | 11802,0 | 37,0 |

| 01.07. 2017-ci il tarixə təyin olunmuş sosial müavinətlər | Sosial müavinat alanlar (nəfərlə) | Bir nəfərə düşən aylıq məbləğ (manatla) |
|---|---|---|
| Cəmi | **517** | **82,6** |
| O cümlədən | | |
| Yaşa görə | 1 | 60,0 |
| Əlilliyə görə | 124 | 54,96 |
| Sağlamlım imkanları məhdud 18 yaşadək uşaqlara | 74 | 74.0 |
| Ailə başçısını itirilməsinə görə müavinət alanlar | 20 | 61.0 |
| Kommunal nəqliyyat və digər xidmətlərə görə | 295 | 49,1 |
| 1 yaşadək uşağı olan ailələrə | 2 | 50.0 |
| Yetim və valideyin himayəsindən məhrum olmuş uş aqların qəyyumları | 1 | 55.0 |
| **Birdəfəlik müavinət təyin olunanların sayı** | **96** | **180.9** |
| O cümlədən | | |
| Uşağın doğulmasına görə müavinət alan ailələrin sayı | 17 | 99,0 |
| Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkərək əlil olmuş şəxslər | 2 | 215,0 |
| Dəfn üçün müavinət | - | - |
| Qarabağ əlillərinə | 16 | 145,75 |
| Hərbi xidmət zamanı əlil oanlar | 1 | 143,0 |
| Şəhid ailələrinə | 60 | 220,0 |

**İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə olan məlumata əsasən** 2017-ci il iyulun 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1422 nəfər olmuş, onlardan 1385 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 37 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 42,4% təhsil, 6,2% sənaye, 19,7% əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 14,5% dövlət idarəetməsi və müdafiə; sosial təminat, 0,6% nəqliyyat və anbar təsərrüfatı, 1,3% peşə, elmi və texniki fəaliyyət, 4,4% kənd təsərrüfatı, 10,5% istirahət, əyləncə və incəsənət sahəsində, 0,4 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. 2017-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,3 faiz artaraq 520,1 manat olmuşdur. Xocavənd Rayonda isə muzdla çalışan işçilərin orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,6 faiz artaraq 267,0 manat olmuşdur.
olmuşdur.

**Məşğulluq və işsizlik üzrə** İqtisadi fəal əhali-17602 nəfər olmaqla, məşğul əhali 16806 nəfər, işsiz əhali 796 nəfər, iqtisadi qeyri fəal əhali 7524 nəfər təşkil edir. Əhalinin iqtisadi fəallığının səviyyəsi 70,1%, məşğulluğun səviyyəsi 95,5%, işsizliyin səviyyəsi isə 4,5% olmuşdur. İqtisadi fəal əhalinin 48,5%-ni kişilər, 51,5%-ni isə qadınlar təşkil edir. İqtisadi fəal o cümlədən məşğul, işsiz əhali, iqtisadi və qeyri- fəal əhali haqqında məlumatlar aşağıdakı cədvəldəki kimi səciyələndirilmişdir.

**15 yaş və yuxarı yaşda olan iqtisadi fəal və iqtisadi qeyri-fəal əhali**

| Cinsi | İqtisadi fəal əhali | o cümlədən | | İqtisadi qeyri-fəal əhali | Əhalinin iqtisadi fəallığının səviyyəsi, %-lə | Məşğul-luğun səviyyəsi, %-lə | İşsizliyin səviyyəsi, %-lə |
|---|---|---|---|---|---|---|---|
| | | məşğul əhali | işsiz əhali | | | | |
| Cəmi | 17602 | 16806 | 796 | 7524 | 70.1 | 95.5 | 4.5 |
| kişilər | 8544 | 8197 | 347 | 3255 | 72.4 | 95.9 | 4.1 |
| qadınlar | 9058 | 8609 | 449 | 4269 | 68.0 | 95.0 | 5.0 |
| Kənd yerləri | 17602 | 16806 | 796 | 7524 | 70.1 | 95.5 | 4.5 |
| kişilər | 8544 | 8197 | 347 | 3255 | 72.4 | 95.9 | 4.1 |
| qadınlar | 9058 | 8609 | 449 | 4269 | 68.0 | 95.0 | 5.0 |

**Yeni iş yerləri üzrə** 2017-cı ilin II yarısında rayonda 51 yeni iş yeri açılmışdır. Onlardan 2 müəssisə hüquqi şəxslərdə olmaqla, 49 yeni iş yeri fiziki şəxslərdə olmuşdur.

| Göstəricilərin adı | Sətrin №-si | Cari ilin hesabat rübündə(vahid) | İlin əvvəlindən(vahid) |
|---|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı | 01 | 36 | 51 |
| Daimi iş yerləri | * | - | - |
| Yeni yaradılmış müəssisə və təşkilatlarda | 02 | - | 2 |
| Fiziki şəxslərdə | 05 | 36 | 49 |

| Göstəricilərin adı | Sətrin №-si | 2016-cı il yanvar-iyun | 2017-ci il yanvar-iyun |
|---|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı, cəmi : | 01 | 37 | 51 |
| o cümlədən | | | |
| Yeni yaradılmış müəssisə və təşkilatlarda | 02 | 8 | 2 |
| Fiziki şəxslərdə | 05 | 29 | 49 |

Xocavənd Rayon büdcəsinin gəlirləri 2017-cı ilin yanvar-iyun aylarında 288,1 min manat təşkil edilmişdir. Büdcənin gəlirləri keçən ilin müvafiq dövrləri ilə müqayisəli olaraq aşağıdakı kimi olmuşdur.

**Rayon büdcəsinin gəlirləri, min manat**

